Azərbaycan.- 2023.- 19 fevral. S. 8.

# Ermənistanda intihar halları artıb

Ermənistanda sosial problemlər tükənmir. İşsizliyin və səfalətin gətirdiyi çətinliklər səbəbindən də intihar edənlərin sayı artıb. Hər il Ermənistanda 200-dən çox insan ağır həyat şəraiti səbəbindən həyatına qıyır. Bu, ölkənin təxminən bir kəndinin əhalisi qədərdir. Erməni sosioloqlar ölkədəki kriminogen vəziyyət və intiharların artması ilə bağlı narahatlıq keçirirlər. İntihara cəhdlərin sayı isə bundan qat-qat artıqdır.

İntiharların kökündə dayan səbəblər yoxsulluq, sosial sahədə yaranan problemlər, cəmiyyətdəki çoxsaylı problemlərdir. "4rd.am" nəşri yazır ki, ölkədə orta aylıq əməkhaqqı olduqca aşağı səviyyədədir. Paşinyan iqtidarının milli valyutanın - dramın məzənnəsini saxlamaq üçün göstərdiyi cəhdlər heç bir nəticə vermir. Çünki normal iqtisadiyyatı olmayan ölkədə inflyasiyanın həcmi gün keçdikcə bir qədər də artır. Hətta milli valyutanın məzənnəsini saxlamaq məqsədilə Ermənistan Mərkəzi Bankının indiyədək ayırdığı vəsaitlərin belə, problemin yoluna qoyulmasında heç bir təsiri olmayıb. Ölkənin xarici borcu artıq ümumi daxili məhsulun 60-70 faizini üstələyir.

Son zamanlar Ermənistanda çörək istehsalı da kəskin azalıb. Bu barədə İrəvan çörək zavodundan deyilib. Bildirilib ki, ölkənin bir neçə şəhərində çörək zavodları var. Son hesabata əsasən, istehsal 60 faizə qədər azalıb. Bunun səbəbi əhalinin köhnə çörəklərə daha çox üstünlük verməsidir. Köhnə çörək isə yenidən iki dəfə ucuz satılır. Birdən-birə istehsalda 60 faizlik azalma sosial sferadakı dözülməz vəziyyətin göstəricisidir.

Bu ölkədə insanlar gələcəklərinə də nikbin yanaşmır və əvvəlki kimi Ermənistanı tərk etməyə çalışırlar. Yerdə qalanların durumu isə olduqca acınacaqlıdır. Onlar böyük səfalət içində yaşayır, gündəlik ərzaq almağa pul tapmaqda belə çətinlik çəkirlər.

Məhz bunun nəticəsidir ki, Ermənistanda əhalinin böyük əksəriyyəti banklara borcludur. Bank faizləri isə kifayət qədər yüksəkdir. Ötən ilin nəticələrinə görə, Ermənistanda makroiqtisadi, eyni zamanda sosial göstəricilərdə kəskin enişlər var. Ermənistanın rəsmi statistikasına görə, bu gün ölkədə hər 5 nəfərdən biri yoxsulluq həddində yaşayır. Beynəlxalq qurumların hesabatlarına görə isə bu göstərici hər 3 nəfərdən birinə aiddir. Sözügedən ölkənin rəsmi statistikasında hər 5 nəfərdən biri işsizdir. Beynəlxalq hesabatlarda bu rəqəm 25 faizə yaxındır. Praktik olaraq Ermənistanın həm rəsmi statistikası, həm də beynəlxalq hesabatlar ölkənin sosial və iqtisadi vəziyyətinin kifayət qədər acınacaqlı olduğunu göstərir.

Ermənistan iqtisadiyyatı isə rəsmi məlumatlarda göstərildiyinin əksinə olaraq heç bir müsbət makroiqtisadi göstərici nümayiş etdirmir. Maraqlıdır ki, Ermənistanın digər sənaye müəssisələri ilə müqayisədə daha yüksək ixrac qabiliyyəti olan dağ-mədən və metallurgiya sənayesində də problemlər yaşanmaqdadır. Dünyada əlvan metal və metal bazarında qiymətlərin enməsi Ermənistanın qızıl və mis ixracından əldə etdiyi gömrük gəlirlərinin xeyli azalmasına səbəb olmuşdur. Bu sahədə fəaliyyət göstərən şirkətlərin çoxu bağlanıbdır.

Belə bir durumda ölkə daha çox xarici dövlətlərdən asılı vəziyyətə düşür. Bu isə Ermənistanda sosial problemləri daha da artırır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***